DÜNYA XƏBƏRLƏRİ

ABŞ Ukraynaya F-16 avadanlığı satışına razılıq verib

Noyabr 26, 2026



Ukrayna Hərbi Hava Qüvvələri Günü münasibətilə keçirilən tədbirdə F-16 qırıcıları

ABŞ Dövlət Departamenti Ukraynaya F-16 qırıcıları üçün avadanlıq satışını təsdiqləyib.

Açıqlamaya görə, təxminən 620 milyon dollar dəyərində olan bu sifariş Belçika, Danimarka, Niderland və Norveçin maliyyələşdirdiyi JUMPSTART proqramı çərçivəsində gerçəkləşdiriləcək. Yəni vəsait ABŞ büdcəsindən ödənilməyəcək.

"Bu satış Ukraynanın təhdidlərə qarşı müdafiə imkanlarını artıracaq və ölkəyə özünü, eləcə də regionun təhlükəsizliyini qorumaq üçün daha güclü hava hücumundan müdafiə sistemi qazandıracaq", – rəsmi məlumatda bildirilir.

Ukrayna 2024-cü ildən F-16 təyyarələrindən istifadə edir. Oktyabrda Rusiyanın Ukraynaya atdığı reaktiv dronların əksəriyyətini məhz bu qırıcılar vurub.

Ukrayna prezidenti Volodimir Zelenski isə oktyabrda ölkəsinə verilən F-16 təyyarələrinin təxminən yarısının sıradan çıxdığını açıqlamışdı.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur